# Bakı Enerji Forumu dünyanın enerji təhlükəsizliyinə misilsiz töhfələri ilə bir daha diqqət çəkdi

***Ötən həftə paytaxtımızda başlanan Bakı Enerji Həftəsi Şuşada xüsusi sessiya ilə başa çatdı. Tədbirin əvvəlində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sessiya iştirakçılarına ünvanladığı məktub oxunduqdan və müzakirə olunan məsələlərlə bağlı çıxışlardan sonra isə əməkdaşlığa dair bir sıra sənədlər imzalandı.***




Türkiyə Prezidenti məktubunda bütün sahələrdə olduğu kimi, enerji sektorunda da Azərbaycan və Türkiyənin mükəmməl əməkdaşlığının ölkələrimiz və bölgəmiz üçün strateji xarakter daşıdığını qeyd edib. Məktubda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bərpaolunan enerji sahəsində ortaya qoyduğu baxışın regionun sabitliyi və rifahı baxımından önəmli rol oynadığı vurğulanıb.

Bakı Enerji Həftəsinin Şuşa xüsusi sessiyası çərçivəsində ilk olaraq Energetika Nazirliyi və BP arasında Cəbrayılda 240 MVt gücündə günəş elektrik stansiyası layihəsinin birgə həyata keçirilməsi ilə əlaqədar növbəti addımların atılması məqsədilə 2021-ci ilin iyun ayında bağlanmış İcra Müqaviləsinə Əlavə imzalanıb.

Bu sənəd “Şəfəq” adlı günəş elektrik stansiyası layihəsinin reallaşdırılması istiqamətində birgə fəaliyyəti yekunlaşdırmaq üçün görüləcək tədbirləri əks etdirir.

Sonra Energetika Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) “Masdar” şirkəti arasında “Azərbaycan Respublikasında quruda sənaye miqyaslı 1 QVt gücündə günəş və 1 QVt gücündə külək enerjisi layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqaviləsi” və “Dənizdə 2 QVt gücündə inteqrasiya edilmiş külək və yaşıl hidrogen layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqaviləsi”, habelə SOCAR ilə BƏƏ-nin “Masdar” şirkəti arasında Anlaşma Memorandumu imzalanıb.

Beləliklə, özündə müxtəlif layihələri, o cümlədən, 27-ci Beynəlxalq Xəzər Neft və Qaz, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Bərpa Olunan Enerji sərgilərini, həmçinin əvvəllər Xəzər Neft və Qaz Konfransı adı ilə tanınan Bakı Enerji Forumunu birləşdirən regionun bu ən böyük sənaye tədbiri həm Azərbaycan, həm bölgə, həm də dünya dövlətləri üçün böyük əhəmiyyəti ilə tarixi hadisəyə çevrilib.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü ildə “Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi” haqqında dünyanın ən iri neft şirkətləri ilə bağlanan “Əsrin müqaviləsi” ilə fəaliyyətə başlayan 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Konfransı ötən müddət ərzində bu sahədə uğurlu nəticələrlə yadda qalıb.

Azərbaycan bu dövrdə enerji istehsalı, ixracı, daşınması sahəsində yüksək göstəricilərə nail olub, neft-qaz sahəsində iştirakçılar arasında əlaqələrin genişlənməsində, yeni texnologiyaların və innovasiyaların cəlb olunmasında, respublikamızın neft və qaz hasilatında əldə etdiyi təcrübənin yayılmasında böyük rol oynayıb.

Ötən müddətdə ölkəmiz Azərbaycandan Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən birinci neft boru kəmərinin açılışı, “Şahdəniz” yatağının kəşfiyyatı, Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin tikintisi, Cənub Qaz Dəhlizinin uğurla tamamlanması kimi tarixi hadisələrə şahidlik edib.

Sadalanan nəhəng enerji layihələrinin iştirak və icrasında səmərəli fəaliyyəti ilə diqqətçəkən respublikamız həm enerji potensialını gücləndirib, öz enerji təhlükəsizliyinə sərmayə yatırıb, daxili bazarda tələbatları tam təmin edib, həm də dünya dövlətləri ilə iqtisadi münasibətlərini yeni səviyyəyə qaldırıb. Qardaş Türkiyə, qonşu və dost Gürcüstanla, dünya gücləri arasında nüfuzu ilə seçilən Amerika Birləşmiş Ştatları və Birləşmiş Krallıqla əməkdaşlığını möhkəmləndirib, Avropa Komissiyası, habelə digər beynəlxalq təşkilatlarla əlaqələrində səmərəliliyə nail olub.

Onu da qeyd edək ki, Xəzər Neft və Qaz Sərgi-Forumu bütün mərhələlərində beynəlxalq platforma olaraq dünyanın ən yüksək səviyyəli şəxslərini bir araya gətirib, neft-qaz layihələrinin müzakirəsini müsbət sonluqla gerçəkləşdirib. Bununla da dünyanın enerji təhlükəsizliyinə misilsiz töhfələr verib və hazırda əldə olunan nailiyyətlərin şərtləndirilməsinə gətirib çıxarıb.

Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimi zamanı Prezident İlham Əliyev çıxışında bütün bunlar haqqında ətraflı danışaraq, Avropanın enerji təhlükəsizliyi ilə bağlı bir sıra məqamlara da toxunulub. Dövlət başçısı bu məsələdə şaxələndirməni enerji təhlükəsizliyinin başlıca amillərindən biri kimi dəyərləndirərək, ona Azərbaycanda enerji strategiyasının prioritet istiqamətlərindən biri olaraq yanaşıldığını vurğulayıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin nəticəsində artıq Azərbaycanın müxtəlif istiqamətə uzanan 3 neft və 4 qaz boru kəməri mövcuddur. Ölkəmiz 4 qonşu ölkəyə elektrik enerjisi ixrac edir və Avropaya elektrik enerjisi ixrac etməyi planlaşdırır. Bu şaxələndirilmiş ixrac marşrutları ilə yanaşı, yeni xətlər də nəzərdən keçirilir. Buna misal olaraq, Zəngəzur dəhlizinin yalnız yüklər üçün deyil, eyni zamanda, elektrik enerjisi kimi mühüm ixrac marşrutuna çevriləcəyi haqqında da hazırda əsaslı fikirlər yürüdülür.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində fəal və səmərəli fəaliyyəti statistik göstəricilərdə də aydın nəzərə çarpır. Bununla bağlı əvvəlcə onu deyək ki, ölkəmiz 1997-ci ildən Aropa İttifaqı (Aİ) bazarlarına neft və qaz tədarük edir. Aİ-yə neftin ixrac olunduğu əsas xətt Bakı–Tbilisi–Ceyhan kəməridir.

Bu il mayın 1-dək 628 milyon ton neft ixrac olunub. Hasil edilən neftin 325 milyon tonu Azərbaycanın mənfəət neftinin payına düşüb, 458 milyon ton neft Bakı–Tbilisi–Ceyhan neft kəməri ilə daşınıb.

“Azəri-Çıraq-Günəşli” yatağına 42 milyard ABŞ dolları investisiya qoyulub və gələcəkdə də böyük vəsait qoyulacağı nəzərdə tutulub.

Azərbaycan Prezidenti İlham Əliyev son 18 ildə ölkənin enerji sektorunun inkişafına daim diqqət və qayğı göstərib. Ötən müddətdə bu sahədə genişmiqyaslı islahatlar gerçəkləşdirilib, yenidənqurma, tikinti işləri böyük vüsət alıb. Dövlətimizin başçısının tapşırığı ilə hazırlanan Reabilitasiya Proqramı çərçivəsində energetika sistemi əsaslı şəkildə modernləşdirilib, “itirilmiş” generasiya gücləri bərpa edilib. Elektroenergetika sahəsində fəaliyyətin dayanıqlığı artırılıb, texnoloji bazası gücləndirilib və infrastrukturu təkmilləşdirilib. Bütün bunların nəticəsidir ki, Azərbaycan Davos İqtisadi Forumunun “Qlobal Rəqabətlilik Hesabatı”nda “əhalinin elektrik təchizatı səviyyəsi” üzrə dünyada 2-ci yer tutan ölkələr sırasında qeydə alınıb.

***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 8 iyun.- S.5.